Almaniya Federativ Respublikasının
Səfirliyi
Bakı

Yenilənmişdir: Mart 2026

**Azyaşlı alman övladının yanına köçməyə dair-**
**məlumat vərəqəsi**

Xahiş olunur əvvəlcə milli viza üçün müraciət etməyə dair **ümumi məlumatları** oxuyun.

Sənədlərin işlənmə müddəti orta hesabla 3 ay, ayrı-ayrı hallarda isə daha uzun müddət davam edir.

**Viza üçün müraciət etmək məqsədilə aşağıdakı sənədləri təqdim etməyiniz tələb olunur:**

| **Viza ərizəsi üçün sənədlərin siyahısı**<br>Hər bir ərizə ilə aşağıdakı sənədlər tam şəkildə təqdim edilməlidir. |
|---|
| ☐ Ən azı 2 boş vərəqi olan etibarlı xarici pasport *(xarici pasportun şəkil olan səhifəsi və əvvəlki Şengen vizalar və, möhürlər səhifələrin 1 ədəd surəti)* |
| ☐ Şəxsiyyət vəsiqəsi və ya əcnəbilərə verilən etibarlılıq müddəti qüvvədə olan Azərbaycanda yaaşamaq icazəsi *(əsli + 1 ədəd surəti)* |
| ☐ 1 ədəd alman dilində tam şəkildə doldurulmuş və şəxsən imzalanmış milli viza üçün ərizə forması |
| ☐ 2 ədəd biometrik pasport şəkli (3,5 x 4,5 cm; 6 aydan köhnə olmamalı) |
| ☐ yanına köçəcəyiniz uşağın doğum şəhadətnaməsi, xarici şəhadətnamələr olduğu təqdirdə alman dilinə tərcüməsi ilə (əsli + 2 ədəd surəti), əgər doğum şəhadətnaməsində uşağın atası qeyd olunmayıbsa atalığın tanınması haqqında sənəd və uşağın anasının razılıq bəyanatı tələb olunur |
| ☐ Viza rüsumu (bax: milli viza ilə bağlı ümumi məlumatlar) |
| ☐ Ərizəçinin şəxsi məlumatlarını və onun ünvanını əks etdirən Almaniyada yaşayan yetkinlik yaşına çatmış övlad/ailə üzvü tərəfindən göndərilmiş qeyri-rəsmi dəvətnamə |
| ☐ uşağın alman vətəndaşlığına dair sənədi, məs.: uşağın alman pasportunun, şəxsiyyət vəsiqəsinin, naturalizasiya (vətəndaşlığa qəbul) haqqında sənədin və ya vətəndaşlıq haqqında vəsiqəsinin surətləri (sənədin 2 ədəd surəti) |
| ☐ əgər varsa: uşağın valideynlərinin nikah şəhadətnaməsi, xarici şəhadətnamə olduğu təqdirdə alman dilinə tərcüməsi ilə (əsli+2 ədəd surəti) |
| ☐ Əgər uşağın valideynləri bir-biri ilə evli deyilsə, ailəyə köçən valideynin qəyyumluğunun sübutu tələb oluna bilər (məsələn, xarici ata ailəyə qoşulmaq istəyirsə və uşağın əvvəllər yalnız Almaniyada adi yaşayış yeri olubsa, uşağın valideynlərindən birgə qəyyumluq bəyannaməsi tələb olunur). |
| **Hələ doğulmamış alman övladının yanına köçmək də mümkündür.**<br>Bu hallarda doğum şəhadətnaməsinin və uşağın Almaniya vətəndaşlığını təsdiq edən sənədin əvəzinə aşağıdakılar təqdim edilməlidir |
| ☐ hamiləliyi təsdiq edən və gözlənilən doğum tarixini göstərən tibbi arayış (əsli + 2 surəti) |
| ☐ uşağa alman vətəndaşlığı verəcək valideynin alman vətəndaşı olması barədə sənəd (2 ədəd surəti) |
| ☐ gələcək valideynlər bir-biri ilə evli olmadıqları təqdirdə doğumdan əvvəl atalığının tanınmasına dair sənəd və ananın razılıqbəyanatı ilə yanaşı tələb olunduğu halda gələcək valideynlərin birgə himayədarlıq haqqında bəyanatları (əsli + 2 ədəd surəti) |
| **Viza proseduru bitdikdən sonra həmişə təqdim edilməli sənədlər:** |
| ☐ Səyahət sığortası (etibarlılıq müddəti:90 gün, minimal sığorta məbləği 30.000 avro, bütün Şengen dövlətləri üçün etibarlı, nəzərdə tutulan səfərin ilk günündən qüvvədə olmalı ) **yaxud** |

☐ Alman tibbi sığorta şirkətinin artıq mövcud sığorta təminatı haqqında təsdiqi. Ailə sığortası yalnız Almaniyada yaşamağa başladığınız vaxtdan qüvvəyə mindiyi üçün ölkəyə daxil olduqdan sonra ilk 10 gün üçün səyahət sığortası təqdim edilməlidir.

**Xahiş olunur nəzərə alasınız ki, Sizin Azərbaycanda verilən vətəndaşlıq vəziyyətinə dair sənədləriniz və məhkəmə qərarları (məsələn, qəyyumluqla bağlı məhkəmə qərarları, övladlığa götürmə qərarları) müraciət edərkən apostil olunmuş şəklində təqdim edilməlidir. Apostil proseduru haqqında məlumatı bu linkdən əldə edə bilərsiniz: https://baku.diplo.de/az-az/service/2760300-2760300**

Sənədlərə baxılma zamanı, Almaniyadakı xaricilərlə iş uzrə məsul idarə (Ausländerbehörde) adətən Almaniyada yaşayan alman uşağının valideyni ilə əlaqə saxlayacaq. Buna görə də, xahiş edirik ərizənizdə istinad edən şəxs haqqında tam, düzgün və oxunaqlı məlumatların olduğundan əmin olun.

**Xahiş olunur nəzərə alasınız**:

Almaniyada yaşayan yetkinliki yaşına çatmış uşaqlarınızla ailə birləşməsi yalnız Almaniya Yaşayış haqqında Qanununun (AufenthG) 36-cı maddəsinin 2 və 3-cü bəndlərində göstərilən hallarda mümkündür.